# "Səndən mənə yar olmaz" xalq mahnısının aranjimanı və müasir texnologiyaların istifadəsi

**Cavadova Nigar (BMA)**
**Fakultə: Musiqi tarixi və nəzəriyyəsi**
**İxtisas: musiqi texnologiyaları**
**Kurs: II**
**Elmi rəhbər: Əməkdar incəsənət xadimi, sənətşunaslıq doktoru, professor Tariyel Məmmədov**

Azərbaycan xalq mahnılarının toplanması, nota salınması və elmi tədqiqi dahi bəstəkarımız Üzeyir Hacibəylinin adı ilə bağlıdır. 1927-ci ildə Azərbaycanda musiqi folkloru ekspedisiyası işə başlamışdır. Elə həmin ildə Üzeyir Hacıbəyli və Müslüm Maqomayev Azərbaycan xalq mahnılarını toplayib işləmiş, nota salmiş və nəşr etdirmişlər. 1930-cu illərin əvvələrindən başlayaraq xalq musiqi nümunələrinin toplanmasi sayəsində ADK-nın(indiki BMA) nəzdində görkəmli sənətkar Bülbülün rəhbərlik etdiyi elmi tədqiqat kabineti yaranır və fəaliyyət göstərir. Bu elmi tədqiqat kabinetinin işində o dövrun gənc bəstəkarlari - Asəf Zeynallı, Qara Qarayev, Cövdət Hacıyev, Fikrət Əmirov, Səid Rüstəmov, Zakir Bağırov, Tofiq Quliyev və başqalari fəal iştirak edir, ekspedisiyalar zamanı xalqımızın xanəndələrinin və digər musiqiçilərinin ifaçılıq repertuarından saysiz-hesabsız xalq musiqi nümunələrini, dastanları yazıya alırlar. Sonralar Nazim Əliverdibəyov, Fikrət Əmirov, Tofiq Quliyev, Səid Rüstəmov kimi bəstəkarlar bu xalq musiqi nümunələrinin lad-intonasiya məzmunu, metroritmik quruluş xüsusiyyətlərini öz yaradıcı-

lıqlarında geniş istifadə etmişlər.

Dünya musiqi tarixinin müxtəlif dövrlərində xalq musiqi nümunələri daim yenidən işlənmiş, yeni həyat qazanmışdır. Azərbaycan musiqisində də xalq mahniları müxtəlif musiqiçilər, bəstəkarlar tərəfindən yenidən işlənmiş, aranjiman edilmişdir. Xalq mahnılarımızdan biri olan «Səndən mənə yar olmaz» mahnısı bir sıra bədii xüsusiyyətləri ilə diqqətimizi cəlb etmişdir. Bu mahnının melodiyasından istifadə edərək kamera ansamblı üçün bir kompozisiya üzərində işləyirəm. Bu kompozisiya «Səndən mənə yar olmaz» xalq mahnısının yeni instrumental aranjimanıdır. Buraya ağac nəfəsli fleyta aləti əlavə olunub. Bayatı-Şiraz muğamı üstündə olan bu mahnının lad-məqam intonasiyaları kompozisiya boyu səslənir. Buna görə də mahnının melodiyasının işlənməsində həmin muğamin bir parçasından istifadə olunub.

Muasir dövrümüzdə xalq mahnı melodiyalarının yenidən işlənməsi və aranjimanı bəstəkarların və musiqiçilərin diqqət mərkəzində olaraq qalir.

Biz, muasir texnologiya proqramları vasitəsi ilə müxtəlif alətlərin ifasında səslənən ayrı-ayrı partiyaların video-səs yazısını bir ansambl şəkilində birləşdirib vahid bir əsər ərsəyə gətirə bilirik. Nəticədə isə yeni texnologiyaların muasir vasitələri öz yaradıcılıq işlərimizi tamaşaçılara və dinləyicilərə təqdim etməyə imkan verir.